# Folklorşünaslığımıza dəyərli töhfə




Xalq yaradıcılığı bitib-tükənməyən qaynar söz çeşməsidir. Əsrlərin dərinliklərdən keçib gələn hikmət dolu sənət örnəklərini zaman özü saf-çürük edir və yalnız xalqın arzu və istəklərinə cavab verən nümunələr yaşamaq hüququ əldə edirlər. Müdrik ağsaqqalların, ağbirçəklərin yaddaşına hopub qalmış bu mənəvi sərvətlərdə xalqımızın qəhrəmanlıq tarixi, mübarizə əzmi, humanizmi, istək və arzuları, ağrı-acısı yaşayır. Hafizələrdə yaşayan zəngin folklor örnəklərimizin toplanması, nəşr olunması folklorşünaslarımızın qarşısında duran ən mühüm vəzifələrindən biridir.

Milli mənəvi sərvətlərin yenidən dəyərləndirildiyi və folklor irsinə diqqətin yönəldiyi çağdaş dönəmdə folklor janrlarımızın toplanma, nəşr və tədqiq tarixini özündə əks etdirən biblioqrafik göstəricilərə ehtiyac duyulur. Məhz bu baxımdan gənc tədqiqatçı Validə Həsənovanın bu yaxınlarda çap etdirdiyi "Azərbaycan xalq nağılları: Biblioqrafik göstərici" kitabı aktualdır. Elmi redaktoru filologiya elmləri doktoru Aybəniz Əliyeva-Kəngərli olan bu biblioqrafik göstərici nağıllara həsr edilmiş ilk biblioqrafiya olmaqla yanaşı, həm də informasiya mənbələrini göstərmək baxımından diqqəti cəlb edir.

İlk nümunələri uzaq keçmişlərdə yaranan nağıllar folklorun möcüzələrə əsaslanan bir janrı kimi səciyyələnir. Bu zəngin xalq yaradıcılığı örnəkləri ilkin görüşləri, etiqadları, adət-ənənələri öyrənmək üçün zəngin bilgi verir. Xalq nağıllarında həyati problemlər, xalqın arzu və istəkləri möcüzəli biçimdə ifadə olunur.

AMEA-nın doktorantı Validə Həsənovanın tərtib etdiyi biblioqrafik göstəricinin "Tərtibçidən" adlanan hissəsində müəllif indiyədək xalq yaradıcılığını əks etdirən müxtəlif biblioqrafik göstəricilərin tərtib edildiyini bildirsə də, folklor janrlarının ayrı-ayrılıqda inkişaf xronikasını özündə əks etdirən biblioqrafik tərtiblər yaradılmadığını təəssüflə qeyd edir. Girişdə həmçinin nağıllar haqqında yazılmış tədqiqat işlərindən, Azərbaycan nağıllarının ilk biblioqrafik mənbələrindən, eyni zamanda biblioqrafik göstəricinin quruluşu və tərtibi prinsipləri haqqında da yetərincə məlumat verilir.

Müəllif qeyd edir ki, ilkin məxəzlərə nəzər saldıqda nağılları əks etdirən ilkin biblioqrafik mənbələr məhz QƏXTMT-də (SMOMPK nəzərdə tutulur) verilmiş kitabiçi, kitabarası, məqaləiçərisi biblioqrafik materiallardır. Müəllif nağılların yer aldığı növbəti biblioqrafik nəşrin E.Kozubskinin I cildi 1895-ci ildə, II cildi isə 1902-ci ildə Tiflisdə tərtib və nəşr etdirdiyi 2 cilddən ibarət biblioqrafik göstərici olduğunu göstərir. Həmin topluda hər buraxılış nəşr ardıcıllığı ilə təsnif edilmiş, mənbələr üçün 5 adda köməkçi aparat tərtib edilmişdir.

Müəllif XX əsrin ortalarında tərtib olunmuş göstəricilər sırasında prof. A.V. Baqrinin tərtib etdiyi "Azərbaycan biblioqrafiyası üçün materiallar" (3 buraxılış), "Qafqaz xalq ədəbiyyatı: Biblioqrafik göstərici üçün materiallar", 3 cilddən ibarət "Azərbaycan və ona yaxın ərazilərin folkloru" və s.-nin adını çəkməklə yanaşı, onlar haqqında qısa da olsa məlumat verir .

V.Həsənova son dövrlər xalq yaradıcılığına həsr olunmuş sanballı biblioqrafik mənbələr içərisində professor A.Əliyeva-Kəngərlinin "Azərbaycan folkloru: biblioqrafik göstərici"sini xüsusi vurğulayır. Həmin kitabda —nağıllar 317 adda ədəbiyyatı özündə birləşdirən xüsusi yarım bölmədə öz əksini tapır. Mənbələrin təsnifi tədqiqatçı tərəfindən nağılların növlərinə görə aparılır.

Gənc tədqiqatçı V.Həsənovanın nağıllara həsr edilmiş ilk xüsusi tərtib edilmiş biblioqrafik göstəricisində xronoloji ardıcıllığa ciddi əməl olunur. Mənbələrin təsnifləşdirilməsi zamanı araşdırıcı əvvəlcə nağıllara aid toplama işlərinin biblioqrafik təsvirlərini verirsə, daha sonra nağıllara həsr olunmuş elmi araşdırmaların mənbələrini göstərir.

Müəllif SMOMPK məcmuəsinə aid nağılları göstəriciyə daxil edərkən onların yalnız "tatar", yaxud azərbaycanlı müəlliflərin yazıya almasını deyil, həmçinin bu materialların Azərbaycan ərazisindən toplanması məsələsinə diqqət yetirir. SMOMPK məcmuəsinin struktur fərqliliyini nəzərə alan müəllif SMOMPK məcmuəsində çap olunmuş nağılları ayrıca bölümdə verir. Biblioqrafik göstəricinin ən böyük bölümü "Azərbaycanxalq nağılları: kitablar" hissəsidir. Bu bölümdə 1903-cü ildə Təbrizdə nəşr edilmiş 64 səhifəlik "Seyfəlmülk və Mələkə xanım" adlı ilk kitabından tutmuş, 2014-cü il də daxil olmaqla nəşr olunmuş kitablar haqqında biblioqrafik informasiya əldə edirik. Bu bölümü tərtib edərkən müəllif cild, toplu və külliyyatlarda öz əksini tapmış nağılların adları ilə yanaşı, səhifələrini də dəqiqliklə göstərir.

Biblioqrafik göstəricinin quruluşuna nəzər salsaq, burada xronoloji ardıcıllıqla müxtəlif dillərdə çap olunmuş Azərbaycan nağılları ilə yanaşı, həm də Azərbaycan dilində nəşr olunmuş dünya xalqlarının nağılları haqqında informasiyaya da rast gəlirik. Biblioqrafik göstəricidə nağıllarımız haqqında yazılmış tədqiqat əsərləri, o cümlədən Azərbaycan və rus dillərində kitab, məqalə, dissertasiya və avtoreferatlar xronoloji ardıcıllıqla verilmişdir. Göstəricidən aydın olur ki, N.Seyidovun filologiya elmləri namizədi alimlik dərəcəsi almaq üçün 1955-ci ildə çap etdirdiyi "Azərbaycan nağıllarında sosial ədalətsizlik əleyhinə mübarizə motivləri" adlı avtoreferatı nağıllarımızın tədqiqi ilə bağlı çap olunmuş ilk avtoreferatdır. Azərbaycan dilində nağıllar haqqında ilk elmi məqaləyə gəldikdə isə bu Y.V.Çəmənzəminlinin 1926-cı ildə "Maarif və mədəniyyət" jurnalının IX sayında nəşr etdirildiyi "Azəri nağıllarının əhval-ruhiyyəsi" məqaləsidirsə, rus dilində bu, SMOMPK məcmuəsinin 1883-cü il III buraxılışının II bölümündə V.Veniaminovun çap etdirdiyi irihəcmli "Salahlı kəndi və ordan yazılmış tatar nağılları" məqaləsidir. Umumiyyətlə, "Qafqaz əraziləri və xalqlarının təsvirinə dair materiallar toplusu"nda 100-dən artıq Azərbaycan nağılının müəyyənləşdirilməsi" müəllifin öz işinə məsuliyyətli və peşəkarcasına yanaşmasından xəbər verir.

Bildiyimiz kimi, biblioqrafik göstərici hazırlayarkən köməkçi-informasiya aparatından istifadə edilir. Biblioqrafik göstəricidə əlifba prinsipi gözlənilməklə 9 adda köməkçi aparat göstərilmişdir. Köməkçi-informasiya aparatında Azərbaycan və rus dillərində nağıl toplayıcısı, redaktor, rəyçi və rəssamların adları göstəricinin əlifba prinsipi əsasında göstərilməsi tədqiqatın diqqəti cəlb edən əsas məziyyətlərindən hesab etmək olar. Məsələn, biblioqrafik göstəricidən aydın olur ki, "Azərbaycan folkloru antologiyası" çoxcildliyinin "Şəki folkloru" kitabının I cildinin rəyçisi F.Çələbiyevdir və ya 1999-cu ildə azyaşlı oxucular üçün nəzərdə tutulmuş "Cırtdan" kitabının rəssamı N.Məmmədova, 1982-ci ildə isə nəşr olunmuş "Azərbaycan nağılları" kitabının rəssamı S.Veysəlovdur və s.

Fikrimizcə, Azərbaycan nağılları ilə bağlı belə bir xüsusi biblioqrafik göstəricinin nəşri nağıllarımızın toplanması və tədqiqi tarixi sahəsində mövcud olan boşluğu doldurmağa imkan verəcəkdir. Nağıllarımızı araşdıran hər bir tədqiqatçı üçün əvəzsiz töhfə olan bu biblioqrafik göstəricinin nəşr olunması münasibəti ilə gənc araşdırmaçını təbrik edir və ona yeni yaradıcılıq uğurları diləyirik.

**Məhəmməd MƏMMƏDOV,**
**BDU-nun Azərbaycan şifahi xalq ədəbiyyatı kafedrasının dosenti, filologiya üzrə fəlsəfə doktoru.**